## Qarşıya qoyulmuş mühüm məqsədlərə doğru...

***«Ernst &Young» şirkətinin Azərbaycandakı partnyoru Arzu Hacıyeva:***

- Azərbaycanın vergi sistemində aparılan islahatlar, vergi inzibatçılığının təkmilləşdirilməsi səmərəli idarəetmənin əldə olunmasına töhfə verir. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində davamlı işlər aparan Vergilər Nazirliyi elektron xidmətlərin tətbiqi ilə bağlı qarşıya qoyduğu məqsədlərə çatmaq üçün sistemli və ardıcıl iş aparır. Nazirlik tərəfindən yeni texnologiyalardan istifadə, dövlət və özəl strukturlarda elektron xidmətlərin tətbiq olunması ilə bağlı maksimum səviyyədə işlər görülür.

Ölkədə dövlət qurumlarına, fiziki və hüquqi şəxslərə elektron xidmətlər göstərilməsi üçün güclü hüquqi baza yaradılıb və geniş infrastruktur mövcuddur. Hazırda informasiya texnologiyalarının mühüm komponentlərindən biri kimi, dövlət strukturlarında elektron xidmətlər şəbəkəsinin yaradıldığını xüsusi qeyd etmək olar.

2012-ci ildə hüquqi şəxslərin dövlət qeydiyyatının elektron qaydada aparılması biznes mühitinin yaxşılaşdırılması və ölkənin beynəlxalq hesabatlarda mövqeyinin yaxşılaşması baxımından çox önəmlidir. Bununla yanaşı, vergi bəyannamələrinin onlayn rejimdə tətbiqi həm fiziki, həm də hüquqi şəxslərə geniş imkanlar yaradıb, vergi inzibatçılığı sahəsində çox böyük irəliləyişə təkan verib. Vergilər Nazirliyi hazırda dövlət qurumları içərisində informasiya-kommunikasiya texnologiyalarının və müasir elektron xidmətlərin tətbiqi səviyyəsinə görə ilk sıralarda dayanır.